

# NATO-nun 2022-ci il tarixli STRATEJİ KONSEPSİYASI

**29 iyun 2022-ci il tarixində Madriddə baş tutmuş NATO zirvə görüşündə dövlət və hökumət başçıları tərəfindən qəbul edilmişdir.**

# Ön söz

Biz, NATO müttəfiqləri olan dövlət və hökumət başçıları təhlükəsizliyimiz, həmçinin beynəlxalq sülh və stabillik üçün taleyüklü bir vaxtda Madriddə bir araya gəlmişik. Bu gün, Alyansımızın gələcək üçün sağlam və resurslarla təminatlı qalmağına şərait yaradan yeni Strateji konsepsiyanı dəstəklədiyimizi bəyan edirik.

NATO yetmiş ildən uzun bir dövr ərzində müttəfiqlərimizin azadlıq və təhlükəsizliyini təmin edib. Uğurumuz qadın və kişilərin silahlı qüvvələrimizdə qulluq və fədakarlığının nəticəsidir. Verdikləri böyük töhfələrə görə onlara və onların ailələrinə minnətdarıq.

Bir milyardlıq əhalimizi qorumaq, ərazimizi müdafiə etmək, azadlığımızı və demokratiyanı təmin etmək naminə tutduğumuz qəti mövqemizdə qalırıq. Ölkələrimiz arasında uzun sürən transatlantik bağlar və ortaq demokratik dəyərlərimizin gücü üzərində qurulmuş birliyimiz, yekdillik və həmrəyliyimizi gücləndirəcəyik. Şimali Atlantika Sazişinə olan, həmçinin bir-birimizi yaranma səbəbindən asılı olmayaraq bütün təhdidlərdən müdafiə etmək məqsədinə sarsılmaz sadiqliyimizi bərqərar edirik.

Ədalətli, əhatəli və davamlı sülh naminə fəaliyyətə davam edəcəyik və qaydalara əsaslanan beynəlxalq quruluşun müdafiə sütunu qismində qalacağıq. Beynəlxalq sülh və təhlükəsizliyə töhfə vermək üçün qlobal mənzərəni saxlayacaq və tərəfdaşlarımız, digər ölkələr və Avropa İttifaqı, Beynəlxalq Millətlər Təşkilatı kimi beynəlxalq təşkilatlarla birlikdə işləyəcəyik.

Dünyamız mübahisə edilir və qəfildən dəyişməyə meyl edir. Rusiya Federasiyasının Ukraynaya qarşı təcavüzkar müharibəsi sülhü sarsıtdı və təhlükəsizlik mühitimizi həyəcan yaradan dərəcədə dəyişdi. Rusiyanın qəddar və qeyri-qanuni basqını, beynəlxalq humanitar hüququ dəfələrlə pozması və çirkin hücum və iztirablar törətməsi sözlə ifadə olunmayan əzab və dağıntılara səbəb olmuşdur. Güclü, müstəqil Ukrayna Avroatlantik məkanın stabilliyi üçün mütləq əhəmiyyət kəsb edir. Moskvanın davranışı Rusiyanın qonşularına, daha geniş anlamda transatlantik icmasına qarşı təcavüzkar hərəkətlərinin bir nümunəsini əks etdirir. Biz həmçinin arası kəsilməyən, bütün növ və şəkildə təzahür edən terror təhdidi ilə üzləşirik. Yayılmaqda olan qeyri-stabillik, artan strateji rəqabət və getdikcə vüsət alan avtoritarlıq Alyansın maraq və dəyərlərini sınağa çəkir.

Yeni Strateji konsepsiyamızda NATO-nun "360 dərəcəli" yanaşmasına əsaslanan kollektiv müdafiəmizi təmin etmək başlıca vəzifəsi bir daha vurğulanır. Burada Alyans qarşısında olan üç əsas tapşırıq müəyyən edilir: çəkindirmə və müdafiə, böhranın qarşısının alınması və idarə edilməsi və birgə təhlükəsizlik. 5-ci maddədən irəli gələn bir-birimizi müdafiə etmək öhdəliyinin ana xətti olan çəkindirmə və müdafiə tədbirlərimizi əhəmiyyətli dərəcədə gücləndirmək ehtiyacının vacibliyini vurğulayırıq.

NATO-nun nüvə silahlarının sayının başlıca məqsədi sülhü hifz etmək, güc tətbiqinə təhrikin qarşısını almaq və təcavüzdən çəkindirməkdir. Nüvə silahları mövcud olanadək NATO nüvə alyansı kimi qalacaqdır. NATO-nun məqsədi hər kəs üçün daha təhlükəsiz dünyadır; nüvə silahlarının olmadığı dünya üçün təhlükəsizlik mühitinin yaradılmasına çalışırıq.

Strateji konsepsiyada vurğulanır ki, milli və kollektiv müqavimət gücünün təmin edilməsi başlıca vəzifələrimiz üçün olduqca vacibdir və ölkələr, cəmiyyət və ortaq dəyərlərimizin qorunması səylərimizin əsasını yaradır. Konsepsiyada həmçinin texnoloji innovasiyalara investisiya qoyuluşu

ilə iqlim dəyişmələri, insan təhlükəsizliyi və "Qadınlar, sülh və təhlükəsizlik" gündəliyinin başlıca vəzifələrimizə inteqrasiyasının çarpaz əhəmiyyəti vurğulanır.

Baxışımız aydındır: suverenlik, ərazi bütövlüyü, insan hüquqları və beynəlxalq hüquqa hörmətlə yanaşılan və hər ölkənin təcavüz, təhrik və ya siyasi sistemin devrilməsindən azad olan öz yolunu seçə biləcəyi bir dünyada yaşamaq istəyirik. Bu dəyərləri bölüşən hər kəslə əməkdaşlıq edirik. Müttəfiq olaraq, azadlığımızı müdafiə etmək və dünyanın daha dinc olmasına töhfə vermək naminə bir-birimizin yanındayıq.

## Məqsəd və prinsiplər

1. NATO, müttəfiqlərin azadlıq və təhlükəsizliyini mühafizə etməkdə qətiyyətlidir. Onun əsas məqsədi və ümdə vəzifəsi bütün istiqamətlərdən gələn bütün təhdidlərə qarşı kollektiv müdafiəmizi təmin etməkdir. Biz müdafiə yönümlü Alyansıq.

2. Dövlətlərimiz arasında transatlantik bağlılıq təhlükəsizliyimizin ayrılmaz hissəsidir. Bizi birləşdirən ortaq dəyərlərimizdir: fərdi azadlıq, insan hüquqları, demokratiya və qanunun aliliyi. Biz Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinin və Şimali Atlantika Müqaviləsinin məqsəd və prinsiplərinə qəti şəkildə sadiq qalırıq.

3. NATO fərdi və birgə təhlükəsizliyimizlə əlaqəli bütün məsələlərdə məsləhətləşmək, əlaqələndirmə aparmaq və addımlar atmaq üçün özünəməxsus, vacib və əvəzedilməz transatlantik forumdur. Biz bölünməz təhlükəsizliyimizə, həmrəyliyimizə və Şimali Atlantika Sazişinin 5-ci maddəsində əks olunduğu kimi, bir-birimizi qorumaqla bağlı sarsılmaz öhdəliyimizə söykənərək Alyansımızı gücləndirəcəyik. Bu öhdəliyimizin dayaq sütunu bizim çəkindirmək və müdafiə etmək qabiliyyətimizdir.

4. NATO üç əsas vəzifəsini yerinə yetirməyə davam edəcək: çəkindirmə və müdafiə, böhranın qarşısının alınması və idarə edilməsi və birgə təhlükəsizlik. Bunlar bütün müttəfiqlərin kollektiv müdafiəsini və təhlükəsizliyini təmin etmək öhdəliyini tamamlayır.

5. Biz fərdi və kollektiv davamlılığımızı və texnoloji üstünlüyümüzü artıracağıq. Bu səylər Alyansın əsas vəzifələrinin yerinə yetirilməsi üçün çox vacibdir. Biz iqlim dəyişikliyini, insanların təhlükəsizliyini və "Qadınlar, sülh və təhlükəsizlik" gündəliyini bütün tapşırıqlarımıza inteqrasiya edəcək və yaxşı idarəçiliyi təşviq edəcəyik. Dəyərlərimizin təzahürü kimi gender bərabərliyini gücləndirməyə davam edəcəyik.

## Strateji mühit

6. Avroatlantik zonada sülh pozulub. Rusiya Federasiyası Avropanın sabit və proqnozlaşdırıla bilən təhlükəsizlik nizamının formalaşmasına töhfə verən norma və prinsipləri pozub. Biz müttəfiqlərin suverenliyi və ərazi bütövlüyünə qarşı hücumun mümkünlüyünü lazımınca qiymətləndirməliyik. Hazırda daha geniş təhlükəsizlik mühitimiz strateji rəqabət, geniş yayılmış qeyri-sabitlik və dövri sarsıntılarla səciyyələnir. Üzləşdiyimiz təhdidlər qlobaldır və bir-biri ilə əlaqəlidir.

7. Avtoritar subyektlər maraqlarımıza, dəyərlərimizə və demokratik həyat tərzimizə qarşıdır. Onlar demək olar ki, şəffaflıq olmadan və beynəlxalq norma və öhdəlikləri nəzərə almadan üstün ənənəvi, nüvə və raket silahlarının say artımına investisiya edirlər. Strateji rəqiblər bizim dözümlülüyümüzü yoxlayır və dövlətlərimizin açıqlığından, bir-biri ilə əlaqəli olmasından və rəqəmsallaşmasından sui-istifadə etməyə səy göstərirlər. Onlar hibrid üsullardan istifadə edərək, həm birbaşa, həm də vasitəçilər hesabına demokratik proseslərə və təsisatlara müdaxilə edir, vətəndaşlarımızın təhlükəsizliyini hədəfə alırlar. Onlar kiberfəzada və kosmosda bədniyyətli fəaliyyətlər icra edir, dezinformasiya kampaniyalarını təşviq edir, miqrasiyadan sui-istifadə aləti kimi istifadə edir, enerji təchizatını manipulyasiya edir və iqtisadi təhrikdən yararlanırlar. Bu subyektlər həm də çoxtərəfli normaları və təsisatları zəiflətmək və avtoritar idarəçilik modellərini təşviq etmək üçün görülən məqsədli tədbirlərə rəhbərlik edirlər.

8. Rusiya Federasiyası müttəfiqlərin təhlükəsizliyinə və Avroatlantik zonada sülh və sabitliyə qarşı ən mühüm və birbaşa təhlükədir. O, məcburetmə, təxribat, təcavüz və işğal vasitəsilə təsir və birbaşa nəzarət zonaları yaratmağa çalışır. O, bizə və tərəfdaşlarımıza qarşı ənənəvi, kiber və hibrid vasitələrdən istifadə edir. Onun hərbi qüvvələri təhrik yönümlü yerləşdirməsi, ritorikası və öz məqsədlərinə çatmaq üçün gücdən istifadəyə aşkar hazırlığı qaydalara əsaslanan beynəlxalq nizamı sarsıdır. Rusiya Federasiyası öz nüvə qüvvələrini müasirləşdirir və təhrik məqsədilə nüvə silahı təhdidindən istifadə etməklə ikili təyinatlı yeni və dağıdıcı hədəfvurma sistemlərini genişləndirir. O, bizdən şərqdə və cənubda yerləşən ölkələrdə sabitliyi pozmaq məqsədinə qulluq edir. Onun ucqar şimalda müttəfiqlərin gücünün artırılmasını və Atlantik okeanının şimal hissəsində gəmiçilik azadlığını pozmaq potensialı Alyansın qarşısında strateji çağırış kimi çıxış edir. Moskvanın hərbi gücünün artması, o cümlədən Baltikyanı, Qara dəniz və Aralıq dənizi regionlarında silahlanması, həmçinin Belarusla hərbi inteqrasiyası təhlükəsizliyimizə və maraqlarımıza meydan oxuyur.

9. NATO Rusiya Federasiyası ilə birbaşa qarşıdurmaya səy göstərmir və ona qarşı təhlükə yaratmır. Biz vahid və məsuliyyətli qaydada Rusiyanın təhdidlərinə və düşmənçilik xarakterli hərəkətlərinə cavab verməyə davam edəcəyik. Biz bütün müttəfiqlər üçün çəkindirmə və müdafiəni əhəmiyyətli dərəcədə gücləndirəcək, Rusiyanın təzyiqinə qarşı müqavimətimizi artıracaq və tərəfdaşlarımıza zərərli müdaxilə və təcavüzə qarşı çıxmaqda dəstək göstərəcəyik.  Rusiyanın düşmənçilik xarakterli siyasət və hərəkətlərini nəzərə alaraq onu tərəfdaşımız hesab edə bilmərik. Buna baxmayaraq, biz riskləri idarə etmək və yumşaltmaq, eskalasiyanı önləmək və şəffaflığı artırmaq üçün əlaqə kanallarını açıq saxlamağa hazırıq. Biz həm Avroatlantik zonada, həm də NATO və Rusiya Federasiyası arasında sabitliyi və vəziyyəti proqnozlaşdırma imkanını təmin etməyə çalışırıq. Münasibətlərimizdə hər hansı dəyişikliyin baş verməsi Rusiya Federasiyasının təcavüzkar davranışını dayandırmasından və beynəlxalq hüquqa tam əməl etməsindən asılıdır.

10. Bütün növ və şəkildə təzahür edən terrorçuluq həm vətəndaşlarımızın təhlükəsizliyinə, həm də beynəlxalq sülh və tərəqqiyə qarşı birbaşa asimmetrik təhdiddir. Terror təşkilatları müttəfiqlərə hücum etməyə və ya bu cür hücumları stimullaşdırmağa çalışır. Onlar öz şəbəkələrini genişləndirmiş, potensiallarını artırmış və öz əhatə dairəsini və hücumlarının tələfat gücünü artırmaq üçün yeni texnologiyalara yatırımlar etmişdir. Qeyri-dövlət silahlı qrupları, o cümlədən transmilli terror şəbəkələri və dövlətlərin dəstəklədiyi subyektlər öz sıralarına yeni silahdaşlar cəlb etmək, bazalarını səfərbər etmək və genişləndirmək üçün münaqişələrdən və zəif idarəçilik hallarından faydalanır.

11. Afrika və Yaxın Şərqdə münaqişələr, zəif quruluşlar və qeyri-sabitlik bizim və tərəfdaşlarımızın təhlükəsizliyinə birbaşa təsir göstərir. NATO-nun cənub qonşuları, xüsusilə Yaxın Şərq, Şimali Afrika və Sahel regionları bir-biri ilə əlaqəli təhlükəsizlik, demoqrafiya, iqtisadiyyat və siyasət zəminində çağırışlarla üzləşir. Bu çağırışlar iqlim dəyişmələri, təsisatların zəifliyi, səhiyyə sahəsində fövqəladə hallar və ərzaq çatışmazlığı təhlükəsinin təsiri nəticəsində daha da kəskinləşir. Bu vəziyyət qeyri-dövlət silahlı qrupları, o cümlədən terror təşkilatlarının yayılması üçün münbit zəmin yaradır, həmçinin, strateji rəqiblərin sabitliyi pozan və təhrik xarakterli müdaxilələrinə yol açır.

12. Geniş yayılmış qeyri-sabitlik mülki şəxslərə qarşı zorakılığa, o cümlədən münaqişələrlə əlaqəli cinsi zorakılığa, həmçinin mədəni dəyərlərə qarşı hücumlara və ətraf mühitin korlanmasına gətirib çıxarır. Bu, əhalinin məcburi yerdəyişməsinə töhfə verərək, insan alverini və qanunsuz miqrasiyanı tətikləyir. Bu təmayüllər ciddi transmilli və humanitar

çağırışlar yaradır. Onlar insan və dövlət təhlükəsizliyini zəiflədir və qadınlara, uşaqlara və azlıq təşkil edən qruplara qeyri-mütənasib təsir göstərir.

13. Çin Xalq Respublikasının (ÇXR) bəyan etdiyi rəyasətpərəst və təhriketmə siyasətləri maraqlarımız, təhlükəsizliyimiz və dəyərlərimizə meydan oxuyur. ÇXR öz qlobal iştirakının artması və güc proyeksiyası üçün genişspektrli siyasi, iqtisadi və hərbi alətlərdən istifadə edir, lakin bu zaman öz strategiyası, niyyətləri və hərbi gücünün artması ilə bağlı şəffaflığı təmin etmir. ÇXR-in bədniyyətli hibrid və kiber əməliyyatları və qarşıdurma yönümlü ritorikası və dezinformasiya işi müttəfiqləri hədəfə alır və Alyansın təhlükəsizliyinə xələl gətirir. ÇXR aparıcı texnologiya və sənaye sektorlarına, kritik infrastruktura və strateji materiallara və təchizat zəncirlərinə nəzarət etməyə çalışır. O, iqtisadi imkanlarından strateji asılılıqlar yaratmaq və təsirini artırmaq məqsədilə istifadə edir. Kosmos, kiberfəza və dəniz sahələrində də qaydalara əsaslanan beynəlxalq nizamı pozmağa çalışır. Çin Xalq Respublikası və Rusiya Federasiyası arasında dərinləşən strateji tərəfdaşlıq və onların qaydalara əsaslanan beynəlxalq nizamı zəiflətmək üçün bir-birini qarşılıqlı dəstəkləyən səyləri dəyər və maraqlarımıza ziddir.

14. Alyansın təhlükəsizlik maraqlarını qorumaq məqsədilə ÇXR ilə qarşılıqlı konstruktiv fəaliyyətə, o cümlədən qarşılıqlı şəffaflığı gücləndirməyə hələ də açığıq. Müttəfiqlər olaraq, ÇXR-in Avroatlantik zonanın təhlükəsizliyinə qarşı yaratdığı sistemli çətinlikləri aradan qaldırmaq və NATO-nun müttəfiqlərin müdafiə və təhlükəsizliyinə zəmanət vermək qabiliyyətinin davamlılığını təmin etmək üçün məsuliyyətli şəkildə birlikdə çalışacağıq. Ortaq məlumatlılıq, müqavimət gücü və hazırlığımızı artıracaq, ÇXR-in Alyansı bölmək məqsədilə təhriketmə taktikasına və səylərinə qarşı müdafiəni təmin edəcəyik. Biz ortaq dəyərlərimizi və qaydalara əsaslanan beynəlxalq nizamı, o cümlədən gəmiçilik azadlığını qoruyacağıq.

15. Kiberfəza hər zaman mübarizə meydanıdır. Bədxah tərəflər kritik infrastrukturumuzu zəiflətməyə, dövlət xidmətlərimizə müdaxilə etməyə, kəşfiyyat məlumatları əldə etməyə, əqli mülkiyyəti oğurlamağa və hərbi fəaliyyətlərimizə mane olmağa çalışır.

16. Strateji rəqiblər və potensial əleyhdarlar bizim kosmosda fəaliyyət azadlığımızı və kosmosa çıxışımızı məhdudlaşdıra, kosmik imkanlarımızı poza, mülki və hərbi infrastrukturumuzu hədəfə ala, müdafiə və təhlükəsizliyimizə zərər vura bilər texnologiyalara yatırımlar edir.

17. Yeni və qabaqcıl texnologiyalar həm imkanlar, həm də risklərə yol açır. Onlar münaqişələrin xarakterini dəyişərək, daha böyük strateji əhəmiyyət qazanır və qlobal rəqabətin aparıldığı əsas məkana çevrilir. Texnoloji üstünlük döyüş meydanında uğura getdikcə daha çox təsir edir.

18. Silahlara nəzarət, tərksilah və kütləvi qırğın silahlarının yayılmaması sisteminin tükənməsi strateji sabitliyə mənfi təsir göstərib. Rusiya Federasiyasının silahlara nəzarətlə bağlı öhdəlik və vəzifələrini pozması və selektiv şəkildə icra etməsi daha geniş miqyasda təhlükəsizlik vəziyyətinin pisləşməsinə töhfə verib. Düşmən dövlət və qeyri-dövlət subyektləri tərəfindən NATO-ya qarşı kimyəvi, bioloji, radioloji və nüvə materiallarından və ya silahlarından potensial istifadə təhlükəsizliyimizə qarşı təhdid olaraq qalır. İran və Şimali Koreya nüvə və raket proqramlarını təkmilləşdirməyə davam edir. Suriya, Şimali Koreya və Rusiya Federasiyası qeyri-dövlət subyektlərlə birlikdə kimyəvi silahlardan istifadəyə əl atıb. ÇXR öz nüvə arsenalını sürətlə genişləndirir və getdikcə daha təkmil hədəfvurma sistemləri yaradır və bu zaman şəffaflığın artırılması və ya xoş məramla silahlara nəzarət və ya risklərin azaldılması ilə məşğul olmur.

19. İqlim dəyişmələri dövrümüzün həlledici çağırışlarından biri olmaqla Alyansın təhlükəsizliyinə dərin təsir göstərir, böhran və təhlükələri artıran bir amildir və münaqişələri, qeyri-sabitliyi və geosiyasi rəqabəti kəskinləşdirə bilər. Temperaturların artması dəniz səviyyələrinin qalxmasına, təbiət yanğınlarına və meteoroloji hadisələrin daha tez-tez baş verməsinə və kəskinləşməsinə səbəb ola, nəticədə cəmiyyətlərimizin fəaliyyətinin pozulmasına, təhlükəsizliyimizin zəifləməsinə, vətəndaşlarımızın həyatının və yaşayış vasitələrinin təhlükə altına düşməsinə gətirib çıxara bilər. İqlim dəyişmələri həm də silahlı qüvvələrimizin fəaliyyət tərzinə təsir göstərir. İnfrastrukturumuz, resurslarımız və bazalarımız iqlim dəyişmələrinin təsirləri qarşısında həssasdır. Qüvvələrimiz daha ekstremal iqlim şəraitində fəaliyyət göstərməli olur və təbii fəlakət nəticələrinin aradan qaldırılmasında kömək üçün hərbi qüvvələrimizə daha tez-tez müraciət edilir.

# NATO-nun əsas tapşırıqları

### Çəkindirmə və müdafiə

20. NATO müdafiə yönümlü alyans olsa da, heç kəs bizim gücümüzə və müttəfiqlərin ərazisinin hər bir qarışını müdafiə etmək, bütün müttəfiqlərin suverenliyini və ərazi bütövlüyünü qorumaq və istənilən təcavüzçünü üstələmək əzmimizə şübhə etməməlidir. "360 dərəcəli" yanaşmamıza uyğun olaraq bütün sahələrdə və istiqamətlərdə çəkindirmək, müdafiə etmək, qarşı çıxmaq və rədd etmək üçün strateji rəqabət mühitində qlobal məlumatlılığımızı və əhatə dairəmizi artıracağıq. NATO-nun çəkindirmə və hərbi qüvvələri yerləşdirmə bacarığı nüvə, ənənəvi və raket müdafiəsi imkanlarının adekvat kombinasiyasına əsaslanır və kosmik və kiber imkanlarla tamamlanır. Bu bacarıq müdafiə yönümlü, mütənasib və beynəlxalq öhdəliklərimizə uyğundur. Bütün təhlükələrə cavab olaraq, hərbi və qeyri-hərbi alətləri öz seçdiyimiz formada, vaxtda və sahədə mütənasib, vahid və kompleks şəkildə tətbiq edəcəyik.

21. Biz istənilən potensial əleyhdarı hər hansı mümkün təcavüz imkanlarından məhrum etmək məqsədilə çəkindirmə və hərbi qüvvələri yerləşdirmə qabiliyyətimizi əhəmiyyətli dərəcədə gücləndirəcəyik. Bu məqsədlə, quruda, dənizdə və havada əhəmiyyətli və davamlı mövcudluğumuzu təmin edəcəyik. Bura gücləndirilmiş kompleks hava və raket hücumlarından müdafiə sistemindən istifadə də daxildir. Biz etibarlı, daimi dislokasiya ərazilərində yerləşdirilmiş, çoxsahəli və döyüşə hazır qüvvələr, gücləndirilmiş komanda-idarəetmə mexanizmləri, öncədən yerləşdirilmiş silah-sursat və avadanlıq və hər hansı müttəfiqi qısa müddət ərzində və ya ilkin xəbərdarlıq olmadan belə, çevik şəkildə gücləndirmək üçün artırılmış potensial və infrastruktur sayəsində ön cəbhədə çəkindirmə və müdafiəni həyata keçirəcəyik. Biz çəkindirmə fəaliyyətini və Alyansın müdafiə qabiliyyətini gücləndirmək üçün daimi dislokasiya olunmuş və əlavə yerləşdirilmiş qüvvələr arasında tarazlığı tənzimləyəcəyik. Üzləşdiyimiz təhlükələrə mütənasib şəkildə, çəkindirmə və hərbi qüvvələri yerləşdirmə qabiliyyətimizin etibarlı, çevik, uyğunlaşdırılmış və dayanıqlı qalmasını təmin edəcəyik.

22. Qüvvələrimizin kollektiv hazırlıq, cavabvermə, yerləşdirilmə, inteqrasiya və qarşılıqlı fəaliyyət qabiliyyətini artırmağa davam edəcəyik. Biz, o cümlədən nüvə silahına malik oxşar rəqiblərə qarşı yüksək intensivlikdə çoxsahəli döyüşlər üçün çəkindirmə və müdafiə fəaliyyəti üçün zəruri olan qüvvələri, imkanları, planları, resursları, aktivləri və infrastrukturu bütünlüklə fərdi və ya kollektiv şəkildə təmin edəcəyik. Möhkəm, müqavimətə dözümlü və inteqrasiyalı komanda-idarəetmə strukturunu təmin edəcək,

milli və NATO səviyyəli müdafiə planlarının uzlaşmasını artıracaq və NATO qüvvələrinin strukturunu gücləndirəcək və müasirləşdirəcəyik. Biz təlim və məşqləri gücləndirəcək, qərar qəbulu proseslərimizi şəraitə uyğunlaşdıracaq və səmərəliliyini artıracaq, planlaşdırma işimizi gücləndirəcək və böhranlara cavab sistemimizin effektivliyini yaxşılaşdıracağıq.

23. Dəniz təhlükəsizliyi sülh və tərəqqimiz üçün vacibdir. Dəniz sahəsində bütün təhdidlərə qarşı çəkindirmə və müdafiə tədbirlərini həyata keçirmək, sərbəst gəmiçiliyi qorumaq, dəniz ticarət marşrutlarının təhlükəsizliyini təmin etmək və əsas kommunikasiya xətlərimizi mühafizə etmək üçün mövqeyimizi və vəziyyətə bağlı məlumatlılıq səviyyəmizi artıracağıq.

24. Rəqəmsal transformasiyamızı sürətləndirəcək, NATO-nun Komanda-İdarəetmə Strukturunu informasiya əsrinə uyğunlaşdıracaq və kiber müdafiə vasitələri, şəbəkələri və infrastrukturumuzu gücləndirəcəyik. Qarşılıqlı fəaliyyət qabiliyyətimizi və hərbi üstünlüyümüzü qoruyub saxlamaq üçün innovasiyaları təşviq edəcək və meydana yeni çıxan və dönüş yaradan texnologiyalara investisiya qoyuluşumuzu artıracağıq. Yeni texnologiyaları qəbul və inteqrasiya etmək üçün birlikdə çalışacaq, özəl sektorla əməkdaşlıq edəcək, innovasiya ekosistemlərimizi müdafiə edəcək, standartları formalaşdıracaq və demokratik dəyərlərimizi və insan hüquqlarını əks etdirən məsuliyyətli istifadə prinsiplərinə sadiq qalacağıq.

25. Kosmik və kiber fəzadan təhlükəsiz istifadənin və həmin məkana maneəsiz çıxışın qoruyub saxlanması çəkindirmə və müdafiə üçün önəmlidir. Bütün vasitələrdən istifadə edərək bütün formalarda təzahür edən təhdidlərin qarşısını almaq, onları aşkar etmək, onlara qarşı çıxmaq və cavab vermək üçün kosmik və kiber fəzada effektiv fəaliyyət göstərmək qabiliyyətimizi artıracağıq. Tək və ya toplu formada bədniyyətli kiber fəaliyyətlər, yaxud kosmosdan həyata keçirilən, kosmosa yönələn və ya kosmos daxilindəki düşmənçilik xarakterli əməliyyatlar silahlı hücum səviyyəsinə çata və nəticədə Şimali Atlantika Şurası Şimali Atlantika Sazişinin 5-ci maddəsinə müraciət etməklə nəticələnə bilər. Beynəlxalq hüququn normalarının tətbiqinin mümkünlüyünü qəbul edirik və kosmik və kiber fəzada məsuliyyətli davranışı təşviq edəcəyik. Biz həmçinin, kollektiv müdafiə və təhlükəsizliyimizin asılı olduğu kosmik və kiber imkanların davamlılığını gücləndirəcəyik.

26. Şimali Atlantika Sazişinin 3-cü maddəsindən irəli gələn milli cavabdehlik və kollektiv öhdəlik olaraq, təhlükəsizliyimizə qarşı hərbi və qeyri-hərbi təhdid və çağırışlara qarşı milli və Alyans miqyaslı müqavimət gücünün artırılmasına daha etibarlı, kompleks və uzlaşdırılmış yanaşma tətbiq edəcəyik. Biz strateji zəifliklərin və asılılıqların, o cümlədən kritik infrastruktur, təchizat zəncirləri və səhiyyə sistemləri baxımından müəyyənləşdirilməsi və azaldılması istiqamətində işləyəcəyik. Enerji təhlükəsizliyimizi gücləndirəcək, sabit və etibarlı enerji təchizatı, təchizatçıları və mənbələrinə investisiya edəcəyik. Dövlət idarəetmə orqanlarının fəaliyyətinin fasiləsizliyinin təmin edilməsinə, əhalimizə əsas xidmətlərin təqdim edilməsinə mülki hazırlığı və silahlı qüvvələrimizə mülki dəstəyi təmin edəcəyik. Strateji sarsıntı və pozuntulara hazır olmaq, müqavimət göstərmək, reaksiya vermək və sürətli şəkildə dirçəlmək və Alyansın fəaliyyətinin fasiləsizliyini təmin etmək üçün potensialımızı artıracağıq.

27. Dövlət və qeyri-dövlət subyektlər tərəfindən siyasi, iqtisadi, enerji, informasiya və digər hibrid üsullardan təzyiq vasitəsi kimi istifadəyə qarşı hazır olmaq, onun qarşısını almaq və ondan müdafiə olunmaq qabiliyyətimizə investisiya edəcəyik. Müttəfiqlərə qarşı hibrid əməliyyatlar silahlı hücum səviyyəsinə çata və nəticədə Şimali Atlantika Şurası Şimali

Atlantika Sazişinin 5-ci maddəsinə müraciət edə bilər. Hibrid çağırışlara qarşı mübarizədə tərəfdaşlarımızı dəstəkləməyə davam edəcəyik və Avropa İttifaqı kimi digər müvafiq tərəflərlə əməkdaşlıq nəticələrini maksimuma çatdırmağa çalışacağıq.

28. NATO-nun nüvə silahlarının sayının başlıca məqsədi sülhü hifz etmək, güc tətbiqinə təhrikin qarşısını almaq və təcavüzdən çəkindirməkdir. Nüvə silahının bənzəri yoxdur. NATO-nun nüvə silahlarından istifadə etməli ola biləcəyi halların baş vermə ehtimalı son dərəcə aşağıdır. NATO-ya qarşı nüvə silahlarından hər hansı formada istifadə münaqişənin xarakterini köklü şəkildə dəyişərdi. Alyans ona əleyhdar tərəf üçün qəbuledilməz olacaq və hər hansı əleyhdar tərəfin əldə etmək ümidində olduğu faydalardan qat-qat üstün zərbələr endirmək imkanına və qətiyyətə sahibdir.

29. Alyansın, xüsusən də ABŞ-ın strateji nüvə qüvvələri Alyansın təhlükəsizliyinin təminatıdır. Birləşmiş Krallıq və Fransanın müstəqil strateji nüvə qüvvələri özlüyündə çəkindirici rol oynayır və Alyansın ümumi təhlükəsizliyinə əhəmiyyətli dərəcədə töhfə verir. Bu müttəfiqlərin ayrı-ayrı qərarvermə mərkəzləri potensial əleyhdarların hesablamalarını mürəkkəbləşdirməklə çəkindirmə təsirini gücləndirir. NATO-nun nüvə silahına əsaslanan çəkindirmə qabiliyyəti həm də ABŞ-ın Avropada ön cəbhədə yerləşdirilmiş nüvə silahlarına və müvafiq müttəfiqlərin töhfələrinə söykənir. Milli səviyyədə ikili təyinatlı təyyarələrlə NATO-nun nüvə silahına əsaslanan çəkindirmə missiyasına verilən töhfələr bu səylər üçün ümdə əhəmiyyət kəsb edir.

30. NATO nüvə silahına əsaslanan çəkindirmə missiyasının etibarlılığını, effektivliyini, zərərsizlik və təhlükəsizliyini və mühafizəsini təmin etmək üçün bütün zəruri addımları atacaqdır. Alyans münaqişələrin bütün sahələri və spektri çərçivəsində imkanlarımızın və fəaliyyətlərimizin daha geniş inteqrasiyasını və uzlaşmasını təmin etməkdə qətiyyətlidir, eyni zamanda nüvə silahına əsaslanan çəkindirmə missiyasının özünəməxsus və fərqli rolunu bir daha təsdiq edir. NATO etibarlı çəkindirmə fəaliyyətini saxlamağa, öz strateji kommunikasiya vasitələrini gücləndirməyə, təlimlərinin effektivliyini artırmağa və strateji risklərini azaltmağa davam edəcək.

31. Kimyəvi, bioloji, radioloji və nüvə təhdidlərinə qarşı müdafiəmizə investisiya qoyuluşlarına davam edəcəyik. Biz bu tələblərin çəkindirmə və hərbi qüvvələri yerləşdirmə qabiliyyətimizə inteqrasiyasını təmin etmək üçün öz siyasətlərimiz, planlarımız, təlim və məşqlərimizi gücləndirəcək və potensiallarımızı qiymətləndirəcəyik.

32. Effektiv çəkindirmə və müdafiə, silahlara nəzarət və tərksilah, habelə konstruktiv və qarşılıqlı siyasi dialoq sayəsində təmin edilən strateji sabitlik təhlükəsizliyimizin ayrılmaz tərkib hissəsi olaraq qalır. Silahlara nəzarət, tərksilah və kütləvi qırğın silahlarının yayılmaması Alyansın məqsədlərinə çatmasına yüksək dərəcədə töhfə verir. Müttəfiqlərin silahlara nəzarət, tərksilah və kütləvi qırğın silahlarının yayılmaması ilə bağlı səyləri risklərin azaldılmasına və təhlükəsizliyin, şəffaflığın, təhqiq və əməletmənin artırılmasına yönəlir. Dialoq vasitəsilə inamın yaradılması və proqnozlaşdırılmanın təşviqi, anlaşma səviyyəsinin artırılması və böhranların idarə edilməsi və qarşısının alınması üzrə effektiv alətlərin yaradılması daxil olmaqla strateji risklərin azaldılması prosesinin bütün elementlərindən istifadə edəcəyik. Bu səylər mövcud təhlükəsizlik mühitini və bütün müttəfiqlərin təhlükəsizliyini nəzərə alacaq və Alyansın çəkindirmə və hərbi qüvvələri yerləşdirmə qabiliyyətini tamamlayacaq. Biz NATO-dan silahlara nəzarət tədbirləri barədə dərin müzakirələr və sıx məsləhətləşmələr üçün bir platforma kimi istifadə edəcəyik.

33. Nüvə silahının yayılmaması haqqında Saziş nüvə silahlarının yayılmasının qarşısındakı əsas səddir və biz bu Sazişin, o cümlədən onun 6-cı maddəsinin tam icrasına yüksək dərəcədə sadiqliyimizi qoruyub saxlayırıq. NATO-nun məqsədi Nüvə silahının yayılmaması haqqında Sazişin məqsədlərinə uyğun olaraq nüvə silahlarının olmadığı dünya üçün təhlükəsizlik mühit yaratmaqdır.

34. Terrorçuluqla mübarizə kollektiv müdafiəmiz üçün zəruri əhəmiyyət kəsb edir. NATO-nun terrorçuluqla mübarizədə rolu üç əsas tapşırığın hər birinə töhfə verir və Alyansın çəkindirmə və müdafiə fəaliyyətinə "360 dərəcəli" yanaşmasının tərkib hissəsidir. Terror təşkilatları əhalimizin, qüvvələrimizin və ərazimizin təhlükəsizliyinə təhlükə yaradır. Önləyici, qoruyucu və qadağanedici tədbirlərdən birlikdə istifadə edərək terrorçu qrupların yaratdığı təhdid və çağırışlarla mübarizə aparmağa, çəkindirməyə, müdafiə olunmağa və cavab verməyə davam edəcəyik. Terrorçuluğun yayılmasına zəmin yaradan şəraiti aradan qaldırmaq üçün beynəlxalq ictimaiyyətlə, o cümlədən BMT və Avropa İttifaqı ilə əməkdaşlığı gücləndirəcəyik.

**Böhranların qarşısının alınması və idarə edilməsi**

35. NATO çərçivəsində sabitliyə töhfə vermək və münaqişələri birgə idarə etmək NATO müttəfiqlərinin ortaq marağını təşkil edir. Biz Alyansın təhlükəsizliyinə təsir etmək potensialına malik olan böhranların qarşısının alınması və cavab tədbirlərinin görülməsi istiqamətində işləməyə davam edəcəyik. Böhranların idarə edilməsi sahəsində qazandığımız özünəməxsus imkanlardan və təcrübələrdən istifadə edəcəyik. Bu məqsədlə, mütəmadi təlimlər vasitəsilə böhranlara cavab, hazırlıq və onların idarə edilməsi sahəsinə xüsusi diqqət yetirəcək və imkanlarımızdan böhranlara çoxmillətli cavab əməliyyatlarını əlaqələndirmək, icra etmək, bu əməliyyatların dayanıqlılığını təmin etmək və onları dəstəkləmək üçün istifadə edəcəyik.

36. Böhranların idarə edilməsi, sabitləşdirilməsi və terrorçuluqla mübarizə istiqamətində hərbi və mülki əməliyyatları effektiv qaydada tətbiq etmək və onların dayanıqlılığını təmin etmək üçün resurslar, imkanlar, təlim və komanda-idarəetmə mexanizmlərini strateji məsafədən işləmək daxil olmaqla təmin edəcəyik. Ötən otuz il ərzində digərləri ilə yanaşı, Əfqanıstandakı əməliyyatlarımızdan əldə edilmiş örnəklər daxil olmaqla hazırlığımızı, hərbi və mülki potensiallarımızı və hərbi-mülki planlaşdırma və əlaqələndirmə gücümüzü artırmağa davam edəcəyik. Biz, mülki böhranların idarə edilməsi və yardım əməliyyatlarına dəstək göstərmək və iqlim dəyişmələri, ərzaq çatışmazlığı təhlükəsinin və fövqəladə tibbi vəziyyətlərin Alyansın təhlükəsizliyinə mümkün təsirlərinə hazırlaşmaq baxımından Alyansın qabiliyyətlərini daha da inkişaf etdirəcəyik. Bu bizə qısa müddət ərzində hər hansı gözlənilməz hadisəyə reaksiya vermək imkanı verəcək.

37. Tərəfdaşlar NATO-nun rəhbərliyi altında böhranların idarə edilməsinə mühüm töhfə verir. Missiya və əməliyyatlarımıza töhfə verməkdə marağını ifadə edən tərəfdaşlarla dayanıqlı siyasi əməkdaşlıq və qarşılıqlı hərbi əməliyyat imkanını təmin etməyə davam edəcəyik.

38. Böhran və münaqişələri öncədən proqnozlaşdırmaq və önləmək üçün səylərimizi gücləndirəcəyik. Sabitliyə və Alyansın təhlükəsizliyinə töhfə verməyin dayanıqlı yollarından biri hadisələrin qarşısını almaqdır. Digərləri ilə yanaşı terrorçuluqla mübarizə potensialını gücləndirmələri olan tərəfdaşlarımıza dəstəyimizi artıracaq və onlarla ortaq təhlükəsizlik çağırışları ilə bağlı tədbirlər görəcəyik. Qonşuluğumuzda və daha uzaq coğrafiyalarda yerləşən, həssas vəziyyətdə olan tərəfdaşların hazırlığını və müqavimət

gücünü artırmaq, onların bədniyyətli müdaxilə ilə mübarizə aparmaq, sabitliyin pozulmasının qarşısını almaq və təcavüzlə mübarizə aparmaq qabiliyyətlərini artırmaq üçün onların təhlükəsizliyinə və potensialının gücləndirilməsinə dəstəyimizin miqyasını və əhatə dairəsini genişləndirəcəyik.

39. İnsanların təhlükəsizliyi, o cümlədən mülki əhalinin müdafiəsi və mülki əhaliyə dəyən zərərin azaldılması böhranların qarşısının alınması və idarə edilməsi sahəsində yanaşmamızın mərkəzində dayanır. Böhranları və geniş yayılan qeyri-sabitliyi tətikləyən daha geniş miqyaslı amilləri aradan qaldırmaq, sabitliyə və yenidənqurmaya töhfə vermək üçün digər beynəlxalq subyektlərlə işləyəcəyik. BMT və Avropa İttifaqı ilə, həmçinin Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı və Afrika İttifaqı kimi regional təşkilatlarla əlaqələndirmə və əməkdaşlığı möhkəmləndirəcəyik.

**Əməkdaşlığa əsaslanan təhlükəsizlik**

40. NATO-nun genişlənməsi tarixi uğurdur. Bu, Alyansımızı gücləndirmiş, milyonlarla Avropa vətəndaşlarının təhlükəsizliyini təmin etmiş və Avroatlantik zonada sülh və sabitliyə töhfə vermişdir. Biz təməl dəyərlərimizin və Avroatlantik zonada sülh və sabitliyə strateji marağımızın ifadəsi kimi, Şimali Atlantika Sazişinin 10-cu maddəsinə uyğun olaraq, "Açıq qapı" siyasətimizi bir daha təsdiq edirik. Qapımız Alyansın dəyərlərini bölüşən, üzvlüklə bağlı vəzifə və öhdəliklərini üzərinə götürməyə hazır və qadir olan və üzvlüyü ilə ümumi təhlükəsizliyimizə töhfə verən bütün demokratik Avropa ölkələrinə açıq qalır. Üzvlüklə bağlı qərarlar NATO müttəfiqləri tərəfindən verilir və heç bir üçüncü tərəf bu prosesdə söz haqqına sahib deyil.

41. Alyansın üzvü olmaq istəyən ölkələrin təhlükəsizliyi bizim öz təhlükəsizliyimizlə sıx əlaqəlidir. Biz onların müstəqilliyi, suverenliyi və ərazi bütövlüyünü qəti şəkildə dəstəkləyirik. Alyansa qoşulmağa səy göstərən tərəflərlə siyasi dialoq və əməkdaşlığı gücləndirəcək, onların bədniyyətli müdaxilələrə qarşı müqavimət gücünü artırmağa kömək edəcək, potensiallarını artıracaq və onların Avroatlantik zona ilə bağlı məqsədlərinin reallaşmasına praktiki dəstəyimizi artıracağıq. Avroatlantik zonada sülhə, sabitliyə və təhlükəsizliyə olan ümumi marağımızı reallaşdırmaq üçün Bosniya və Herseqovina, Gürcüstan və Ukrayna ilə tərəfdaşlıq münasibətlərimizi inkişaf etdirməyə davam edəcəyik. Biz 2008-ci ildə keçirilmiş Buxarest zirvə görüşündə Gürcüstan və Ukrayna ilə bağlı qəbul etdiyimiz qərarı və bütün sonrakı qərarları bir daha təsdiq edirik.

42. Tərəfdaşlarla qarşılıqlı hörmət və mənfəətə əsaslanan siyasi dialoq və praktiki əməkdaşlıq sərhədlərimiz xaricində sabitliyə töhfə verir, öz ərazimizdə təhlükəsizliyimizi artırır və NATO-nun əsas tapşırıqlarının yerinə yetirilməsini dəstəkləyir. Tərəfdaşlıq münasibətləri ortaq qlobal resursları qorumaq, dözümlülüyümüzü artırmaq və qaydalara əsaslanan beynəlxalq nizamı qoruyub saxlamaq üçün çox vacibdir.

43. Avropa İttifaqı NATO-nun bənzərsiz və olduqca əhəmiyyətli tərəfdaşıdır. NATO müttəfiqləri və Aİ üzvləri eyni dəyərləri bölüşür. NATO və Aİ beynəlxalq sülh və təhlükəsizliyin dəstəklənməsində bir-birini tamamlayan, bir-biri ilə uzlaşan və bir-birini qarşılıqlı möhkəmləndirən funksiyaları yerinə yetirir. Uzunmüddətli əməkdaşlığımıza əsaslanaraq, NATO-Aİ strateji tərəfdaşlığını genişləndirəcək, hərbi mobillik, müqavimət gücü, iqlim dəyişmələrinin təhlükəsizliyə təsiri, yeni və qabaqcıl texnologiyalar, insanların təhlükəsizliyi, "Qadınlar, sülh və təhlükəsizlik" gündəliyi, həmçinin kiber və hibrid təhlükələrlə mübarizə, ÇXR-in Avroatlantik zonanın təhlükəsizliyinə qarşı yaratdığı sistem xarakterli çağırışlara qarşı tədbirlər kimi məsələlərdə siyasi məsləhətləşmələri gücləndirəcək və əməkdaşlığı artıracağıq. NATO və Aİ arasındakı strateji tərəfdaşlığı

gücləndirmək üçün Aİ üzvü olmayan müttəfiqlərin Aİ-nin müdafiə səylərinə tam qoşulması vacibdir. NATO transatlantik və qlobal təhlükəsizliyə müsbət töhfə verən və NATO-nu tamamlayan, onunla birgə fəaliyyət imkanına malik olan daha güclü və daha yüksək potensiala malik Avropa müdafiə sisteminin dəyərini qəbul edir. Müdafiə xərclərinin artırılması və bir-biri ilə uzlaşan, bir-birini qarşılıqlı möhkəmləndirən potensialların yaradılması, eyni zamanda səylərin lüzumsuz təkrarlanmasının önlənməsi istiqamətində təşəbbüslər Avroatlantik zonanın təhlükəsizliyini artırmağa yönələn birgə səylərimiz üçün taleyüklü əhəmiyyət kəsb edir.

44. Qaydalara əsaslanan beynəlxalq nizamın qorunub saxlanması baxımından Alyansın dəyərlərini və marağını bölüşən tərəfdaşlarla əlaqələri gücləndirəcəyik. Biz bu nizamı müdafiə etmək, dəyərlərimizi qoruyub saxlamaq və onların asılı olduğu sistemləri, standartları və texnologiyaları qorumaq üçün dialoqu və əməkdaşlığı genişləndirəcəyik. Daha geniş qonşu bölgələrdə və bütün dünyada yerləşən ölkələrlə əlaqələri genişləndirəcəyik; qarşılıqlı təhlükəsizliyimizi gücləndirəcəyi halda istənilən ölkə və ya təşkilatla qarşılıqlı fəaliyyətə açıq qalırıq. Yanaşmamız maraqlara yönələn, çevik, ortaq təhdidlərin və çağırışların aradan qaldırılmasına köklənən və dəyişən geosiyasi reallıqlara uyğunlaşa bilən yanaşma kimi qalmağa davam edəcəkdir.

45. Qərbi Balkan ölkələri və Qara dəniz regionu Alyans üçün strateji əhəmiyyət daşıyır. Bu regionlarda maraqlı ölkələrin Avroatlantik zona ilə bağlı məqsədlərinə dəstək göstərməyə davam edəcəyik. Onların üzləşdikləri fərqli təhlükə və çağırışların öhdəsindən gəlmək üçün potensiallarının gücləndirilməsinə yönələn səyləri artıracaq, onların üçüncü tərəflərin bədniyyətli müdaxilə və təzyiqinə qarşı dözümlülüyünü gücləndirəcəyik. Alyans üçün strateji maraq kəsb edən regionlarda, o cümlədən Yaxın Şərq və Şimali Afrika və Sahel regionlarında təhlükəsizliyə qarşı ümumi təhlükə və çağırışların öhdəsindən gəlmək üçün tərəfdaşlarla işləyəcəyik. Hind-Sakit okean regionu NATO üçün əhəmiyyət daşıyır, çünki bu regionda proseslər Avroatlantik zonanın təhlükəsizliyinə birbaşa təsir göstərə bilər. Regionlararası çağırışların öhdəsindən gəlmək və ortaq təhlükəsizlik maraqlarını reallaşdırmaq üçün Hind-Sakit okean regionunda yeni və hazırkı tərəfdaşlarla dialoqu və əməkdaşlığı gücləndirəcəyik.

46. NATO, iqlim dəyişmələrinin təhlükəsizliyə təsirinin öyrənilməsində və ona uyğunlaşmaqda aparıcı beynəlxalq təşkilat olmalıdır. Alyans iqlim dəyişmələrinin müdafiə və təhlükəsizliyə təsirinin qiymətləndirilməsi və bu çağırışların aradan qaldırılması istiqamətində səylərə rəhbərlik edəcək. İstixana effekti yaradan qaz tullantılarının azaldılması, enerji səmərəliliyinin artırılması, təmiz enerji mənbələrinə keçidə və "yaşıl" (ekoloji tarazlığı təmin edən) texnologiyalardan maksimum faydalanmağa yatırım etməklə iqlim dəyişmələri ilə mübarizəyə töhfə verəcək, bununla bərabər, hərbi effektivliyi və etibarlı çəkindirmə və hərbi qüvvələrin yerləşdirilməsini təmin edəcəyik.

## Alyansın uğurunun davamlılığını təmin etmək

47. NATO-ya yatırım qlobal sülh və təhlükəsizliyə töhfə verməklə Avropa və Şimali Amerika müttəfiqləri arasında möhkəm bağlar təminatının ən yaxşı vasitəsidir. Siyasi birlik və həmrəyliyimizi möhkəmləndirməyə və təhlükəsizliyimizə təsir edən bütün məsələlərin həllində məsləhətləşmələri genişləndirməyə və dərinləşdirməyə davam edəcəyik. Müttəfiqlərdən birinin təhlükəsizliyi və sabitliyi təhdidlə üzləşdikdə və ya təməl dəyərlərimiz və prinsiplərimiz risk altında olduqda məsləhətləşmələri gücləndirməyi öhdəmizə götürürük.

48. Müdafiə və təhlükəsizliyimizə qarşı riskləri və öhdəlikləri bərabər şəkildə bölüşəcəyik. Əsas tapşırıqlarımızı tam şəkildə yerinə yetirmək və qərarlarımızı icra etmək üçün bütün zəruri resurslar, infrastruktur, imkan və qüvvələri təmin edəcəyik. Tələb olunan bütün imkanları təmin etmək üçün dövlətlərimizin Müdafiə üçün İnvestisiya İltizamından irəli gələn bütün öhdəlikləri yerinə yetirməsini təmin edəcəyik. Artırılmış milli müdafiə xərclərinin və NATO-nun ümumi maliyyələşməsinin daha çox mübahisələndirilən təhlükəsizlik nizamının çağırışları ilə uzlaşmasını təmin etmək üçün işimizi əldə edilmiş irəliləyiş üzərində quracağıq.

49. NATO Avroatlantik zonanın təhlükəsizliyinin ayrılmaz hissəsi, sülh, azadlıq və tərəqqimizin təminatıdır. Müttəfiqlər olaraq, öz təhlükəsizliyimiz, dəyərlərimiz və demokratik həyat tərzimizi qorumaq naminə bir-birimizin yanında olmağa davam edəcəyik.

www.nato.int/strategic-concept/
#StrategicConcept